# Həftəlik
# *Bülleten*



**131**
**27 Fevral 2026**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**“15 dəqiqəlik şəhər” – insan yönümlü şəhərsalma modeli.**

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində hazırlanan “15 dəqiqəlik şəhər” modeli şəhərsalma yanaşmasıdır və olduqca səmərəli hesab olunur. Bu konsepsiyaya görə, yaşayış məkanında 15 dəqiqə ərzində məktəb, bağça, səhiyyə xidməti, park, market və digər həyat üçün zəruri obyektlər əlçatan olmalıdır". Bu sözləri Azərbaycan Qiymətləndirmə Cəmiyyətinin İdarə Heyətinin sədri Vüqar Oruc bildirib. Onun sözlərinə görə, pilot layihə kimi “15 dəqiqəlik şəhər” sisteminin Ordubadda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarına daxil olan şəhərlərdə tətbiqi xüsusi əhəmiyyət daşıyır: “Həmin ərazilərdə yenidənqurma prosesi və infrastrukturun sıfırdan qurulması bu modelin tətbiqini daha asan və real edir. Şəhərlər yenidən salındığı üçün şəhərsalma prinsiplərində məhz bu yanaşmanın əsas götürülməsi məqsədəuyğun ola bilər. Bu prinsip gələcəkdə Bakı şəhərində yeni binaların və yaşayış massivlərinin salınmasında da nəzərə alınsa, əhalinin daşınmaz əmlak seçimində yalnız mərkəzə və metroya yaxın ərazilərə deyil, digər zonalara da üstünlük verməsinə şərait yaradar. Bu isə sıxlığın azalmasına, tıxac probleminin qismən həllinə səbəb ola bilər. “15 dəqiqəlik şəhər” konsepsiyası rayon və kənd əhalisinin Bakıya axınının qarşısının alınmasına, yeni iş yerlərinin yaradılmasına və yerli iqtisadi fəallığın artmasına stimul verə bilər”.



**Azərbaycanda özəl sənaye məhəllələrinin formalaşdırılması işləri açıqlanıb.**

Azərbaycanda özəl sənaye məhəllələrinin yaradılması istiqamətində hüquqi baza artıq formalaşdırılıb. Bunu bu gün İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov rəhbərlik etdiyi qurumun ötən il üzrə fəaliyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş mətbuat konfransında deyib. O bildirib ki, özəl sənaye məhəllələri dövlət, özəl və bələdiyyə torpaqlarında yaradıla bilər:

"Qərarlar sahibkarların təşəbbüsü əsasında qəbul edilir. Sahibkarların müraciətinə uyğun olaraq investor qeydiyyata alınır və müəyyən edilmiş şərtlər çərçivəsində sənaye məhəlləsi statusu əldə edir. 2025-ci ilin dekabr ayınadək İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən 2 özəl sənaye məhəlləsi qeydə alınıb. Eyni zamanda bu sənaye məhəllələri üzrə ötən il bir rezident qeydiyyatı baş tutub. Bu mexanizm regionlarda sahibkarlığın inkişafına və istehsal imkanlarının genişləndirilməsinə əlavə təkan verəcək".



**Azərbaycanda tikinti materiallarının istehsalı 39 %-dən çox artıb.**

Bu ilin yanvar ayında Azərbaycanda tikinti materiallarının istehsalının ümumi dəyəri 117,8 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu göstərici ötən ilin eyni ayı ilə müqayisədə 39,3 % çoxdur. Məlumata görə, ay ərzində ölkədə asfalt istehsalı 2,1 dəfə artaraq 5,2 min tona, tikinti əhənginin istehsalı isə 40 % artaraq 2,8 min tona çatıb. Hesabat dövründə betondan yığma tikinti konstruksiyalarının istehsalında 4,9 min kubmetr (+28,9 %), sement klinkerlərinin istehsalında isə 395,5 min ton (+13,7 %) qeydə alınıb. Bu müddət ərzində tikinti şüşəsinin istehsalı 8,3 % artaraq , 843,6 min kvadratmetrə çatıb. Eyni zamanada gips məmulatlarının istehsalı 75,7 % azalaraq 1,7 min ton, tikinti gipsinin istehsalı isə 85,1 % azalaraq 1000 ton təşkil edib. Bu ilin yanvar ayında sement və betondan hazırlanan kərpiclərin, habelə oxşar məmulatların istehsalı 63 % azalaraq 4,4 tona düşüb. Hesabat dövründə tikinti kərpiclərinin istehsalında 40,8 min kubmetr (- 20,2 %), hazır beton istehsalında isə 281 min ton (- 20,9 %) müşahidə olunub.



**Azərbaycanda tikinti materiallarının istehsalı 39,3 faiz artıb.**

Tikinti materiallarının istehsalı sahəsində 2026-cı ilin yanvar ayında istehsalın ümumi dəyəri 117,8 milyon manat olmaqla, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 39,3 faiz artıb.

Bu barədə Dövlət Statistika Komitəsi tərəfindən dərc edilən aylıq statistikada qeyd olunub.

Məlumata görə, ötən ay ərzində asfalt istehsalı 2,1 dəfə, əhəng istehsalı 40,0 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 28,9 faiz, sement klinkerlərinin istehsalı isə 13,7 faiz artıb.



**"Bakı şəhərsalma həftəsi"nin keçiriləcəyi tarix açıqlanıb.**

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) hazırlıq çərçivəsində 11-17 may tarixlərində "Bakı şəhərsalma həftəsi" keçiriləcək. Bu barədə WUF13 Azərbaycan Əməliyyat Şirkətinin substantiv məzmun üzrə meneceri (Substantive Content Manager) Cəmilə İsmayılzadə KİV üçün keçirilən təlimdə bildirib. "Hazırda bu həftənin proqramı üzərində iş aparılır. Yaxın zamanda əlavə məlumat veriləcək", - o qeyd edib. C.İsmayılzadənin sözlərinə görə, "Bakı şəhərsalma həftəsi" şəhər kimliyini ön plana çıxaran bir proqramdır:

"Forumlar, müzakirələr, tarixi və mədəni tədbirlər vasitəsilə o, iştirakçılara Bakının tarixi, müasir inkişafı və şəhər həyatı ilə daha yaxından tanış olmaq imkanı verir. Müraciətlərin təqdim edilməsi üçün son tarix aprelin 30-dur". Qeyd edək ki, WUF13 17-22 may tarixlərində Bakıda keçiriləcək.



**Bakıda bu ərazilərdə köhnə evlər söküləcək.**

Paytaxt və ətraf qəsəbələrdə dəmiryolu infrastrukturunun yenilənməsi prosesi sürətlənir. Yeni layihələr çərçivəsində həm mövcud xətlərin modernləşdirilməsi, həm də yeni istiqamətlərin çəkilməsi nəzərdə tutulur. Lakin bu proses bəzi ərazilərdə fərdi yaşayış evlərinin sökülməsi ilə müşayiət oluna bilər. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc bildirib ki, söküntü zamanı kompensasiya məsələsi tikilinin hüquqi statusundan asılı olacaq: “Burada iki əsas hal var: Sənədsiz, lakin qadağan olunmayan ərazidə tikilmiş evlər – əgər tikinti icazəsiz olsa da, həmin torpaq sahəsində ümumilikdə tikintiyə qadağa yoxdursa, belə evlərə müəyyən kompensasiya ödənilməsi mümkündür. Tikintiyə icazə verilməyən ərazilərdə inşa olunan evlər – əgər ev dəmiryolu xətti, mühəndis-kommunikasiya xətləri və ya xüsusi təyinatlı zonalarda qanunsuz şəkildə tikilibsə, bu zaman kompensasiya nəzərdə tutulmur və tikili sökülür. Yəni əsas prinsip ondan ibarətdir ki, normativ və şəhərsalma qaydalarına zidd şəkildə inşa olunmuş tikililər “özbaşına tikili” hesab edilir və onların taleyi qanunvericiliyə uyğun həll olunur. Hazırda layihələr iki əsas istiqaməti əhatə edir. Bunlar Bakıxanov-Binə-Qala və Suraxanı-Hövsan xətləridir. Layihə çərçivəsində normativlərə uyğun olmayan tikililərin sökülməsi planlaşdırılır. Bakıxanov-Binə-Qala istiqaməti Sabunçu rayonu ərazisində Bakıxanov qəsəbəsi, Binə qəsəbəsi və Qala qəsəbəsini əhatə edir. Suraxanı-Hövsan xətti isə Yeni Suraxanı qəsəbəsi, Hövsan qəsəbəsi və ətraf yaşayış massivlərini birləşdirəcək”.



**“Türkiyə–Azərbaycan ticarət nümayəndə heyəti və B2B görüşləri” keçirilib.**

Bakıda Türkiyənin Ticarət Nazirliyinin koordinasiyası və Türkiyə İxracatçılar Assambleyasının təşkilatçılığı ilə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və AZPROMO-nun tərəfdaşlığı çərçivəsində “Türkiyə–Azərbaycan ticarət nümayəndə heyəti və B2B görüşləri” baş tutub.
ATMİA üzvləri və əməkdaşlarının da iştirak etdiyi tədbirdə iş adamları arasında birbaşa əlaqələri gücləndirmək, yeni tərəfdaşlıqlar yaratmaq və iki ölkə arasında ticarət dövriyyəsinin artımına töhfə vermək kimi bir sıra məsələlər müzakirə edilmişdir.






**ATMİA-nın təşkilatçılığı ilə "Kral SR Construction" MMC-nin yeni açılmış plazasına "infotour" xarakterli ziyarət baş tutdu.**

ATMİA-nın təşkilatçılığı ilə "Kral SR Construction" MMC-nin Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən yeni açılmış plazasına "infotour" xarakterli ziyarət baş tutdu. Əvvəlcə ofisdə çay masası ətrafında şirkətin fəaliyyəti, plazanın imkanları və sahibkarlar üçün yaradılan şərait barədə ətraflı təqdimat keçirildi. Daha sonra iştirakçılar binanın mərtəbələrini ziyarət edərək ofis sahələri ilə yerində tanış oldular. Yeni biznes imkanları və əməkdaşlıq perspektivləri baxımından məhsuldar və faydalı görüş oldu.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BULGARIA BUILDING WEEK 2026**

**Tarixlər: 11 - 14 mart 2026-cı il,**

**Məkan: İnter Ekspo Mərkəzi, Sofiya (Bolqarıstan)**

Enerjiyə qənaət edən, ekoloji və funksional tikinti üzrə beynəlxalq sərgi. Tikinti avadanlıqları və maşınları, Əsas tikinti, Xarici tikinti fəaliyyətləri, Daxili materiallar və texnologiyalar, Şaquli planlaşdırma və landşaft dizaynı...

**Sərginin adı: HOME FAIR LJUBLJANA 2026**

**Tarixlər: 11 - 15 mart 2026-cı il,**

**Məkan: Ljubljanski sejem - Lyublyana Sərgi və Konqres Mərkəzi, Lyublyana (Sloveniya)**

Ev üçün mal və xidmətlərin beynəlxalq sərgisi: tikinti, istilik və kondisioner avadanlıqları, interyer dizayn məhsulları və s.

**Sərginin adı: WINDOW DOOR FACADE EXPO CHINA 2026**

**Tarixlər: 11-13 mart 2026-cı il,**

**Məkan: Poly Dünya Ticarət Sərgi Mərkəzi, Quançjou (Çin)**

Çində Pəncərə, Qapı və Fasad Sənayesi Sərgisi. Pəncərə və Qapı, Profil və İzolyasiya, fasad sistemləri, Maşınlar və Alətlər, Avadanlıq və Quraşdırma, Mastik, Örtük...

**Sərginin adı: BUILD+DECOR 2026**

**Tarixlər: 12-14 mart 2026-cı il**

**Məkan: Çin Beynəlxalq Sərgi Mərkəzi (CIEC), Pekin (Çin)**

Çin Beynəlxalq Tikinti Dekorasiyaları və Tikinti Materialları Sərgisi. Bina dekorasiya məhsulları, Bütün evin fərdiləşdirilməsi, Bütün ev dekorasiyası, Mətbəx və vanna otağı texnikası, Ağıllı ev, Pəncərələr, qapılar və aksesuarlar, Prefabrik ev...

## "BAKI DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.

"Bakı Dövlət Universiteti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti Bakı Dövlət Universitetinin Qazanxana binasının və “Yüksək Texnologiyalar Mərkəzi”nin inzibati binası üzrə dayandırılmış tikintinin davam etdirilməsi məqsədilə işlərin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əlaqələndirici şəxs: Nailə Əsgərli, Şöbə müdiri
Email: nailaasgarli@bsu.edu.az
Əlaqə telefonu: +994 12 539 15 36



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti açıq tender elan edir. Tenderin predmeti Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının 5 mərtəbəli kazarma binasının sağ və orta korpuslarının əsaslı təmiri işləriinin satınalmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Toğrul Qarayev, Satınalma mütəxəssisi
Email: dsx.tender@dsx.gov.az
Əlaqə telefonu: +994 12 498 01 36



**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN TİKİLMƏKDƏ OLAN MÜƏSSİSƏLƏRİNİN MÜDİRİYYƏTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edir.
Tenderin predmeti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tabeliyində olan Tibb Müəssisələrinin əsaslı təmir işlərinin layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elgün Sülymanov, Satınalma və Planlaşdırma şöbəsinin müdiri
Email: ftprovision@gmail.com
Əlaqə telefonu: +994 12 493 03 18



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti "Ağdam rayonun Xıdırlı kəndində Ailə sağlamlıq mərkəzinin (Həkim tibb məntəqəsi, Təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayış üçün qonaq evi) tikinti işləri"nin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fərid Əzizov, Satınalma üzrə Baş məsləhətçi
Email: f.azizov@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 672 37 77



**"AZƏRİSTİLİKTƏCHİZAT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti açıq tender elan edir. Tenderin predmeti Polad borular, dirsəklərin və digər polad materialların satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zamiq Səmədov, satınalmalar üzrə mütəxəssis
Email: tender@azeristilik.gov.az
Əlaqə telefonu: +994 77 419 00 09





**www.atmia.az**